# Uşaqların zərərli informasiyalardan qorunması ilə bağlı qanun təkmilləşdirilir

Dünən Milli Məclisin Mədəniyyət komitəsinin payız sessiyasında ilk iclası keçirilib. Öncə ötən sessiya dövründə komitə tərəfindən hazırlanan qanun layihələri barədə məlumat verən komitənin sədri Rəfael Hüseynov bildirib ki, yaz və növbədənkənar sessiyalar zamanı 8 iclas keçirilib. Bu iclaslarda 15 məsələ müzakirə olunub və onlardan 11-i qanun layihələridir.

Bu dövrdə Mədəniyyət komitəsində ayrı-ayrı vətəndaşlardan, habelə idarə, müəssisə və təşkilatlardan daxil olmuş 175 təklif, ərizə və şikayətə baxılıb. Bu müraciətlərdən 121-i tədbir görülməsi üçün müvafiq orqanlara göndərilib, 54 müraciət isə araşdırılmaqdadır.

Sonra komitə sədri payız sessiyasında Milli Məclisə tövsiyə ediləcək sənədlərlə bağlı məlumat verib. Qeyd edilib ki, parlamentin iclaslarına müzakirə üçün "Kinematoqrafiya haqqında", "Azərbaycan muğam sənətinin qorunması və inkişafı haqqında", "Yazılı abidələr haqqında" və "Kabel şəbəkəsi yayımı haqqında" qanun layihələri çıxarılacaq.

Komitənin gündəliyinə daxil edilən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Uşaq hüquqları haqqında", "Təhsil haqqında", "Reklam haqqında" və "Məktəbəqədər təhsil haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə layihələr (birinci oxunuş) də müzakirə edilib. Qeyd olunub ki, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna edilən dəyişikliyə görə internet informasiya ehtiyatlarında informasiya məhsulunun uşaqlar arasında yayılmasını məhdudlaşdıran xəbərdarlıq mətni əks olunmalıdır.

İclasda "Kinematoqrafiya haqqında", "Kütləvi İnformasiya Vasitələri haqqında", "Nəşriyyat işi haqqında", "Televiziya və radio yayımı haqqında", "İctimai televiziya və radio yaymı haqqında", "Telekommunikasiya haqqında", "Teatr və teatr fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə layihələr də birinci oxunuşda müzakirə edilib. Bildirilib ki, bu sənədlərin hər birinə edilən əlavə və düzəlişlər "Uşaqların zərərli informasiyalardan qorunması haqqında" qanuna uyğunlaşdırmaq məqsədi daşıyır.

Qanun layihələrinə nəzərdə tutulan dəyişikliklər müsbət qarşılanıb və sənədlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.- 18 sentyabr.- S. 2.